**UOT: 739.7**

**Leyla Gərşasib qızı İmranlı**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**magistrant**
**E-mail: imranlileyla@gmail.com**

# ORTA ƏSR AZƏRBAYCANIN ODLU SİLAHLARININ BƏDİİ XÜSUSİYYƏTLƏRİ

**Xülasə:** Məqalədə odlu silahın yarandığı tarix və keçdiyi mərhələ əks olunmuşdur. Əsasən odlu silahda tapança və tüfəngin bu dövr üçün necə ayrılmaz bir xüsusiyyət olduğunu görmüş olarıq. Bunu ədəbiyyatlar, istifadə olunmuş mənbələr və bir də illüstrativ rəsmlər sübut edir. Azərbaycanın orta əsr silahlarının, hərb işinin öyrənilməsinin vacib mənbələrindən biri muzey materiallarının olmasıdır.

Odlu silahın əsası XVII əsrdə qoyulmuşdur. İstehsalı isə XVIII əsrin sonlarında yüksək səviyyəyə çatmış və Şərqdə kifayət qədər məşhurluq qazanmışdı. Orta əsr Azərbaycan odlu silahı deyəndə, tapança və tüfəngi qeyd edə bilərik. Hazırlanma texnologiyası sadə olsa da, onlar yüksək konstruktiv məziyyətə və döyüş keyfiyyətinə malik idi. Bu dövrün odlu silahları müxtəlif bəzək tipləri və öz zəngiliyi ilə fərqlənirdilər: çaxmaqdaşı sürgü, lülə qızıl çərtmə, oyma ilə işlənirdi, düz və dar qundaq çinar, yaxud qoz ağacından hazırlanır, gümüş, müxtəlif növ və ağacla inkrustasiya edilirdi.

Azərbaycan odlu silahının lüləsi uzun müddət istifadədən sonra belə yararlığını itirməyən yüksək keyfiyyətli poladdan hazırlanırdı. Çaxmaqdaşlı odlu silah nümunələri XVIII əsrə aid olsa da XX əsr ovçuları tərəfindən də istifadə olunmuşdur. Nadir hallarda oyma və qara naxışlı gümüşdən gülləni qundağa bərkidən patron darağı hazırlanırdı. Bura məhz ustanın və silahın sahibinin adı olan və dekorativ kətəbə ilə bitən yazı bədii gözəllik verirdi. Çaxmaqdaşlı tapançada kilid lülə və dəstək vardır yəni bunlardan ibarətdir. Dalğavari təsvirlər vardir ki, bunlar da lülənin üzərində əks olunmuşdur. O dövr bəzi silahlar Dəməşq poladı texnikası ilə hazırlanırdı, məhz onlardan biri də silahın lüləsidir. Hətta qoltuqaltı (patron qabı) bunlar da silahların ayrılmaz bir hissəsidir.



Orta əsrlərdə odlu silahların Azərbaycan döyüşçüləri arasında geniş yayıldığından çoxlu sayda yazılı, illüstrativ və maddi mənbələr xəbər verir. Yalnız bu mənbələr silah növlərinin istifadəsindən deyil, onların bədii bəzəyə, hansı növə və texniki taktiki xüsusiyyətlərə malik olduqlarını da müəyyənləşdirməyə imkan verir.

Tüfəng və tapança Azərbaycanın fərdi odlu silahlarıdır. Tüfənglərin fitilli və çaxmaqdaşlı kimi iki tipi vardır. Milli Azərbaycan Tarixi Muzeyinin "Yeni tarix" fondunda XVIII əsrin sonlarına aid olan fitilli iki tüfəng nümunəsi saxlanılır. Tüfəng qundaqdan, lülədən, fitil mexanizmindən və dayaqdan ibarətdir. Ümumi uzunluğu 166 sm olan tüfəngin lüləsi kənarları olmayan yaxşı işlənmiş nişangaha asanlıqla keçir. Belə fitil tüfəngə Şərqdə "mültuk" deyirdilər, yəni bu adı ilə məşhurdur. Şərqdə olduğu kimi Azərbaycanda da çaxmaqdaşlı tüfənglər XVIII-XIX əsrin sonlarında geniş yayılmışdır.





Kifayət qədər yüngül və qısaldılmış tüfənglər "Aralıq dənizi tipli", eləcə də "ispan-mavritan tipi" adlanan, tətik çəkilən zaman qığılcım saçan çaxmaqdaşlı sürgüyə malik idilər. Quruluşu isə çox sadədir, arxa hissədən bağlı metal borulu lülə çaxmaqdaşlı sürgü ilə təchiz olunmuş və nişangahla bitişən qundağa bərkidilmişdir. Yüngül və incə tipli olan çaxmaqdaşlı tüfənglərin dayağı olmur, xəznə hissəsi isə bəzəkli və yüngüldür. Azərbaycanda bu tip çaxmaqdaşlı tüfəngə "dayan-doldurum" deyilir. XVIII-XIX əsrlərə aid olan tapançaların təhlilində onların iki tipindən və istifadəsindən xəbər verir. Bunlar səyyahların rəsmlərində, divar naxışlarında və muzey nümunələrində qeyd olunan çaxmaqdaşlı və fitilli tapançalardır.

Çaxmaqdaşlı tapança istifadə forması ilə fərqlənir. Lülə düz, ağzı isə gen deyil, əyilmiş qundaq fil sümüyümdən olan "bulud"la tamamlanır. "Kafkasiya çakmaklı tapançası" adı altında İstanbul muzeyində saxlanılır.

Milli Azərbaycan Tarixi Muzeyində isə fitilli tapançanın ən parlaq nümunəsi mühafizə edilir. Tapança arpacığa ağzı gen formada genişlənən qundaqdan, lülədən və nişangahdan ibarətdir. Uzunluğu 42,5 sm-dir və qundaqdakı halqaya bərkidilmişdir. İstanbulun "Askeri" muzeyində buna bənzər tapança tipi "çakmaklı karabin" adı ilə mühafizə edilir. Hətta türk tədqiqatçısı T.Çoroqlu İstanbul nümunəsinin Azərbaycan ustalarının əl işi olduğunu bildirir. Müasirlərin rəsmləri, muzey nümunələri və divar naxışları (Mehmandarovun evinin divar naxışları, Şəki sarayı) çaxmaqdaşlı tapançanın fitilli tapançadan daha geniş yayıldığını göstərir.

Qafqaz və Şərq silahlarında olduğu kimi, Azərbaycan odlu silahları da öz zənginliyi və bədii-texniki üslubuna görə seçilir. Bir sözlə, Azərbaycanda odlu silahların bəzədilməsində öz incəliyi ilə seçilir. Hətta ornamental formaları tapança və tüfəngin funksional hissələrinə sintez etmək bacarığı ilə fərqlənir.


.

İran və Türk odlu silahlarından fərqli olaraq, Azərbaycan silahlarında bəzəklər daha çox iri hamar səthlərdə həkk olunurdu.

Lakin qeyd edə bilərik ki, orta əsr Azərbaycanda toplar barədə məlumatlar bugünümüzə qədər az sayda gəlib çatmışdır. Buna misal olaraq, bəzi aparılmış tədqiqatlarda top hazırlayan ustaların adlarına rast gəlinməmişdir. Lakin bu o deməkdir ki, top istehsalı Azərbaycanda olmamışdır. Sadəcə xanlıqlar dövrünü buna aid edə bilərik ki, bu dövrdə də odlu silah istehsalı olduğuna şamil olunur.

**Ədəbiyyat:**

1.Sevinc Vahabova. Azərbaycan orta əsr silahları. 2019, 183-190
2. Səbuhi Əhmədov. Silahın mistik gözəlliyi. 2020, 302

**Leyla Garshasib Imranli**

## ARTISTIC FEATURES OF MEDIEVAL AZERBAIJANI FIREARMS

**Резюме:** The article describes the history of the creation of firearms and the stages they passed through. Basically, we will see how firearms and pistols and rifles were an integral feature of this period. This is proven by literature, used sources and illustrative drawings. The study of medieval weapons and military work of Azerbaijan one of its important sources is museum materials.
**Key words:** firearms, pistol ,cartridge, barrel

**Лейла Гаршасиб Имранли**

## ХУДОЖЕСТВЕННЫЕ ОСОБЕННОСТИ СРЕДНЕВЕКОВОГО АЗЕРБАЙДЖАНСКОГО ОГНЕСТРЕЛЬНОГО ОРУЖИЯ

**Summary:** В статье описана история создания огнестрельного оружия и этапы его совершенствования. В тот период пистолеты и винтовки были характерной частью огнестрельного оружия. Это доказано литературой, использованными источниками и иллюстративными рисунками. Материалы музея являются одним из важных источников изучения средневекового оружия и военного дела в Азербайджане в средние века.
**Ключевые слова**: огнестрельное оружие, пистолет, патрон, ствол

**Məqalənin redaksiyaya daxil olma tarixi: 11.06.2024**